Eurasian Journal of Clinical Sciences Vol 4, № 1 (2022)

EURASIAN JOURNAL OF CLINICAL SCIENCES

www.ejcs.org

# İnfiltrasion Anesteziya (Yerli anesteziya – Retromammar Novokain blokadası) ilə sadə mastektomiya.

***Məhərrəmova Lətifə[1], Hacıyev Nizami[2]***

[1]*Sumqayıt Onkoloji Xəstəxana, Sumqayıt, Azərbaycan*

[2]*Sumqayıt Onkoloji Xəstəxana, Sumqayıt, Azərbaycan*

**Ümumi** Xəstə N.D. 1949-cu il təvəllüdlü Sumqayıt Onkoloji Xəstəxanaya sol süd vəzidə olan, giləndən fasiləsiz qanaxma şikayəti ilə daxil omuşdur. Xəstəyə klinik, labarator, instrumental müayinələrə əsasən "C50.1 - Sol süd vəzinin xərçəngi $T_4N_0M_0$ III mərhələ" diaqnozu qoyulmuşdur. Xəstədə öncədən bilinən yanaşı xəstəlikləri "Qaraciyər sirrozu" və "Dəqiqləşdirilməmiş Trombositopeniya" olduğu üçün xəstənin müalicə taktikasına onkoloq, hematoloq, hepatoloq, anestezioloq-reanimatoloq konsiliumundan sonra qərar verilmişdir. Xəstənin öncədən müraciət etdiyi mərkəzlərdə həyati risk nəzərə alınaraq müalicədən imtina edilmişdir.

***Açar sözlər:*** *İnfiltrasion anesteziya, qanaxma, yeni nesil dizileme, biopsiya*

**Ümumi** Xəstə N.D. 1949-cu il təvəllüdlü Sumqayıt Onkoloji Xəstəxanaya sol süd vəzidə olan, giləndən fasiləsiz qanaxma şikayəti ilə daxil omuşdur. Xəstəyə klinik, labarator, instrumental müayinələrə əsasən "C50.1 - Sol süd vəzinin xərçəngi T4N0M0 III mərhələ" diaqnozu qoyulmuşdur. Xəstədə öncədən bilinən yanaşı xəstəlikləri "Qaraciyər sirrozu" və "Dəqiqləşdirilməmiş Trombositopeniya" olduğu üçün xəstənin müalicə taktikasına onkoloq, hematoloq, hepatoloq, anestezioloq-reanimatoloq konsiliumundan sonra qərar verilmişdir. Xəstənin öncədən müraciət etdiyi mərkəzlərdə həyati risk nəzərə alınaraq müalicədən imtina edilmişdir.

**Metodlar:** Xəstədə bədxassəli yenitörəmənin morfoloji təstiqi üçün tru-cut biopsiyanın aparılması hematoloq tərəfindən əks göstəriş hesab olunduğu üçün sitoloji müayinə aparıldı. Konsilium zamanı onkoloq, hepatoloq və hematoloq tərəfindən polikimya terapiya, radioterapiya, hormonterapiyanın aparılması əks göstəriş olaraq dəyərləndirildi. Anestezioloq-reanimatoloq və hepatoloq tərəfindən Ümumi anesteziya (endotraxeal narkoz) və Regionar anesteziya (venadaxili narkoz) xəstə üçün həyati risk olaraq dəyərləndirildi.

**Nəticələr:** Preoperasion periodda 2 ay müddətində xəstəyə hepatoloq və hematoloqun birgə müalicəsi aparıldı. Xəstədə aparılmış müalicə nəticəsində PLT (trombosit) miqdarı 34 g/dl-dən 161 g/dl-ə qədər çatdırıldı. Hepatoloq və hematoloq nəzarəti ilə xəstəyə 09.02.2022 tarixdə İnfiltrasion Anesteziya (Yerli anesteziya – Retromammar Novokain blokadası) ilə "XBT-O-3 : 85.41 - Sol süd vəzinin sadə mastektomiya" əməliyyatı 35 dəqiqə ərzində Sumqayıt Onkoloji Xəstəxananın onkoloqları tərəfindən icra olundu. Əməliyyatdan sonrakı dövrdə hematoloq təyinatı ilə xəstəyə Trombokonsentrant infuziyası (trombosit kütləsi) həyata keçiirildi.

**Yekun**: Xəstədə əməliyyatdan sonrakı dövr fəsadsız keçdi. Cərrahi əməliyyat yarası I-li sağaldı. Xəstədə stasionar nəzarət müddətində cərrahi əməliyyat ilə əlaqəsi olmayan nahiyyələrdə dərialtı qansızmalar aşkar edildi. Konservativ müalicələr ilə ümumi vəziyyəti stabilləşdirildi, xəstə kafi vəziyyətdə evə yola salındı. Xəstə postoperasion periodda nəzarət altında saxlanılır. Xəstəliklə əlaqəli ağırlaşma aşkar olunmamışdır.

**Əsas mesajlar:**

Həyati riskli xəstədə həyat keyfiyyətinin yaxşılaşdırılması üçün fərdiləşdirilmiş müalicə taktikasının seçilməsi.

Ağır xəstələrin müalicəsi zamanı sıx qarşılıqlı əlaqə prinsipi əsasında bütün sahə üzrə həkimlərin konsultasiya və müayinəsi birmənalıdır.

**Təqdimat növü**

Abstraktınızın təqdimatı üçün müvafiq formatı seçin (yalnız birini seçin):

☐ Oral təqdimat

☒ Poster təqdimat

**Mövzu**

Əgər abstrakt və ya məqaləniz aşağıdakı hər hansı mövzuya aiddirsə, zəhmət olmasa qeyd edin:

☒ Süd vəzisi xərçənginin cərrahiyyəsi

☐ Süd vəzisi xərçənginə görə skrininq

☐ Risk faktorlar (ətraf mühit, davranış, metabolik, genetik)

☐ Süd vəzi xərçəngində immunoterapiya

☐ Süd vəzisi xərçəngi hallarında psixoloji və emosional məsələlər

☒ Süd vəzisi xərçəngi əməliyyatlarından sonra ağırlaşmalar

☒ Postoperativ reabilitasiya

☐ Süd vəzisi xərçəngində plastik cərrahiyyənin rolu